# Polad Bülbüloğlunun kitabı Rusiyada işıq üzü gördü



**Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun "Mədəniyyətlərin beynəlxalq dialoqu: Azərbaycan-Rusiya" kitabı işıq üzü görüb. Nəşrə 2015-ci ilin dekabrın 14-dən etibarən Sankt-Peterburq Həmkarlar İttifaqları Humanitar Universitetində oxunan, multikulturalizm və müasir dünyada mədəniyyətlərin beynəlxalq dialoqu problemlərinə həsr olunan mühazirələrin materialları daxil edilib.**

Müəllif kitabda dövlət-siyasi quruluşların xüsusiyyətlərini, Azərbaycanın sosial və iqtisadi siyasətini, ölkənin dini və etnik müxtəlifliyini nəzərdən keçirir, Rusiya və Azərbaycanın mədəniyyətin müxtəlif sahələrində əməkdaşlığına xüsusi diqqət yetirir. Kitab müəllimlər, aspirantlar, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Polad Bülbüloğlu Sankt-Peterburq Həmkarlar İttifaqları Humanitar Universiteti ilə çoxdan əməkdaşlıq edir. O, universitetin təşkil etdiyi və dünyanın ən böyük illik elmi-humanitar forumu olan Beynəlxalq Lixaçov elmi oxunuşlarının iştirakçısıdır.